DÜNYA XƏBƏRLƏRİ

# Ukrayna Krıma aparan əsas körpünü yenə vurub

1 dəqiqə öncə




Əvvəlki hücumlardan birindən sonra Çonqar körpüsündə dağıntılar

Ukraynanın Xerson vilayəti ilə Rusiyanın ilhaq etdiyi Krım yarımadasını birləşdirən Çonqar qəsəbəsi yaxınlığındakı körpü Ukrayna tərəfinin hücumu nəticəsində yenidən zədələnib. Bu barədə Rusiyanın Xerson vilayətinə rəhbər təyin etdiyi **Vladimir Saldo** məlumat verib. Hazırda körpüdə hərəkət dayandırılıb. Sürücülərə alternativ olaraq Armyansk və Perekop marşrutlarından istifadə etmək tövsiyə olunur.

Saldo körpünün dronlarla zədələndiyini bildirib. Onun sözlərinə görə, körpüyə yaxınlaşan 20-dən çox dron vurulub. Vilayət rəhbəri qeyd edib ki, hava hücumundan müdafiə qüvvələri və atəş qruplarının fəaliyyəti olmasaydı, nəticələr daha ağır ola bilərdi.

Ukrayna qüvvələri bu körpüyə sonuncu dəfə iyunun 7-nə keçən gecə hücum edib. Saldo iyunun 8-də gündüz saatlarında yazıb ki, körpüdə hərəkət əks istiqamətlər üzrə növbəli qaydada bərpa olunub və "maksimum qısa müddətdə" təmir işləri aparılacaq.

Çonqar boğazı üzərindəki körpü Krıma aparan əsas quru yollarından biri sayılır və Rusiya ordusunun təchizatında vacib rol oynayır.

Mayın sonunda Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsi bəyan etmişdi ki, işğal altındakı Berdyansk, Melitopol və Cankoy arasında yerləşən magistral yolun hissələri Ukrayna hərbi kəşfiyyatının "atəş nəzarəti" altındadır. İdarə Ukrayna dronlarının zərbələri nəticəsində yanan yanacaq daşıyan maşınların, yük avtomobillərinin və qoşquların görüntülərini yaymışdı. Bu hücumlar Krımda yanacaq çatışmazlığına səbəb olub. Yarımadanın özündə isə dron hücumları dəmiryol infrastrukturunu hədəfə alıb və nəticədə hərəkət müvəqqəti dayandırılıb.

"Krım.Realii" yazır ki, iyunun 9-na keçən gecə Krım və Sevastopol dron hücumlarına məruz qalıb. Krım yarımadasının bir sıra bölgələrində və "Kaça" hərbi aerodromu ərazisində güclü partlayışlar barədə məlumat verilib. Sevastopolda gecə ərzində üç dəfə hava həyəcanı elan olunub.

Ukrayna hərbi qurumları Çonqar körpüsünə və Krıma endirilən zərbələrlə bağlı hələlik şərh verməyib.

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur